İxtisasın düzgün seçilməsi gənclərin həyatında mühüm mərhələdir

Son vaxtlar Qəbələ Rayon Məşğulluq Mərkəzi əhalinin işlə təmin olunmasını daha da yaxşılaşdırmaq, işəgötürənlərlə mərkəzin əlaqələrini gücləndirmək, gəncləri rayonda daha çox ehtiyac olan peşələrə yönəltmək üçün müntəzəm olaraq müxtəlif tədbirlər keçirir.

Dekabr ayının 1-də Qəbələ şəhər 1 saylı tam orta məktəbdə keçirilən tədbir də iştirakçıların böyük marağına səbəb oldu. Tədbir gənclərin səmərəli məşğulluğunun təmin olunmasında peşə yönümü işinin təşkilinə həsr olunmuşdu. Tədbirdə məktəbin 9-cu və 11-ci siniflərinin şagirdləri, valideynlər və müəllimlər iştirak edirdi.

Yığıncağı məktəbin direktoru Məhəbbət Rüstəmova açdı. O bildirdi ki, məşğulluq mərkəzi tərəfindən keçirilən bu tədbir çox təqdirəlayiqdir. Bir neçə aydan sonra buradakı XI sinif şagirdləri məktəbi bitirəcək, müstəqil həyata qədəm qoyacaqlar. Onlar indidən bilməlidirlər ki, rayonumuzda hansı peşələrdən, ixtisaslardan olan işçilərə daha çox ehtiyac var. Eyni zamanda peşə və ixtisas seçərkən öz fərdi qabiliyyətlərini, hansı sahədə özlərini doğrulda biləcəklərini indidən götür-qoy etməlidirlər. Müəllimlər, valideynlər də gənclərə peşə, ixtisas seçməkdə yardımçı olmalıdırlar.

Müzakirə olunan mövzu ilə əlaqədar söz Qəbələ Rayon Məşğulluq Mərkəzinin direktoru Elxan Səlimova verildi. Natiq bildirdi ki, indi dünyada yüzlərlə peşə və ixtisas vardır. Ölkəmizdə yüksək ixtisas qazanmaq, peşə əldə etmək üçün hər cür şərait yaradılmışdır. Gənclərin qarşısında duran əsas məsələ odur ki, ixtisası, peşəni düzgün seçsinlər. Bu zaman gəncin peşəyə, ixtisasa olan həvəsi ilə bərabər gələcəkdə həmin peşənin, ixtisasın lazım olub-olmadığı da nəzərə alınmalıdır. Sözsüz ki, ixtisası əsasən gəncin özü seçir, ancaq valideynlərin, müəllimlərin də gəncləri müəyyən peşələrə istiqamətləndirməsinə ehtiyac var.

Elxan Səlimov hazırkı dünyamızda mövcud olan peşə və ixtisaslar haqqında ümumiləşdirilmiş məlumat verdi.

Mərkəzin direktoru övladlarının ixtisas seçimi zamanı valideynlərə qabaqcıl ölkələrdə sınaqdan çıxmış bir sıra məsələləri xatırlatdı:

—Övladlarınıza maraqlı olan, onun imkanlarının reallaşdıra biləcəyi və bazarda ehtiyac olan ixtisas seçməsini məsləhət görün;

—Övladınıza məsləhət verə bilərsiniz, amma seçim onun işidir;

—İxtisasın səhv seçilməsi fəsadlar yarada bilər.

Məşğulluq mərkəzi direktorunun məruzəsi və məlumatları gənclər və valideynlər tərəfindən maraqla qarşılandı. Çoxsaylı suallara cavab verildi, təkliflər dinlənildi.

Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Fəxrəddin Bağırov belə tədbirlərin gənclərin ixtisas seçiminə düzgün istiqamətləndirilməsindəki əhəmiyyətindən danışdı.

Sonda buraxılış sinif şagirdləri peşə, ixtisas seçimi ilə əlaqədar məşğulluq mərkəzi tərəfindən onlara verilmiş sorğu anketlərini doldurdular.

«Qəbələ».
Fotolar S. Umuyevindir.

Ətraf mühitin qorunmasında gənclərin könüllü iştirakı vacibdir

Noyabrın 28—29-da Şəki Olimpiya İdman Kompleksində gənclərin könüllülük üzrə birinci regional forumu keçirilib.

Şəki Şəhər İcra Hakimiyyətinin, "Mədəni İrsin Qorunmasına Dəstək" İctimai Birliyinin, Yeni Azərbaycan Partiyası Şəki Rayon Təşkilatının, şəhər gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə keçirilən forum "Azərbaycan gəncliyi 2011—2015-ci illərdə Dövlət Proqramı"nın müvafiq bəndinin icrasına uyğun olaraq, gənclər arasında könüllülük hərəkatının təbliğ olunması, gənclərin könüllü fəaliyyətə həvəsləndirilməsi məqsədi daşıyırdı.

Forumda Şəki şəhəri, İsmayıllı, Qəbələ, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarından olan fəal gənclər, gənclər təşkilatlarının üzvləri, həmçinin dövlət qurumlarının, respublikanın nüfuzlu gənclər təşkilatlarının rəsmiləri, ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Forumun iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Şəki şəhərində ucaldılmış abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbiri açan Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov bildirib ki, gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqəlidir. Bu gün Azərbaycan gəncləri ölkə həyatının bütün sahələrində fəal iştirak edir, vətəndaş cəmiyyətinin qurulmasına öz töhfələrini verirlər.

Ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılmasının ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlı olduğunu vurğulayan natiq, Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, paytaxt və regionlarda yaşayan gənclərin fikirlərini öyrənmək, gənclər və dövlət qurumları arasında açıq ünsiyyət qurmaq üçün Ulu Öndərin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin ilk forumunun keçirilməsinin gənclər təşkilatlarının sonrakı fəaliyyətinə çox böyük təsir göstərdiyini bildirib.

Forumun açılışında YAP Şəki Şəhər Təşkilatının sədri Həsən Həsənov, "Mədəni İrsin Qorunmasına Dəstək" İctimai Birliyinin nümayəndəsi Məmməd Həsənov və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun sektor müdiri Orxan Ərəbov çıxış edərək ölkəmizdə gənclər siyasətinin həyata keçirilməsində ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs edib, ölkə gənclərinin qazandıqları uğurlar barədə danışıblar. Vurğulanıb ki, dövlətin gənclərlə bağlı siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclər siyasəti ilə bağlı imzalanan fərman və sərəncamlar, qəbul edilən Dövlət proqramları yeniyetmə və gənclərin hərtərəfli inkişafı və qabiliyyətlərinin üzə çıxarılması üçün geniş imkanlar açır. Bu gün Azərbaycan gəncləri Vətənə məhəbbət, milli-mənəvi dəyərlərə, mədəni irsə, dövlət dili və rəmzlərinə hörmət ruhunda tərbiyə olunur. Ölkədə aparılan uğurlu gənclər siyasətinin nəticəsidir ki, artıq Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial qrupa çevrilib.

Bildirilib ki, tədbirin əsas məqsədi "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın icrasını təmin etmək, region gənclərinin fəallığını daha da artırmaq, onları həyata keçirilən layihələrdə könüllü iştirak etməyə cəlb etməkdir. Vurğulanıb ki, forumda müzakirə olunacaq məsələlər, şübhəsiz ki, region gənclərinin intellektual və yaradıcılıq potensialının artmasına, vətəndaş cəmiyyətinin inkişafında iştirakının genişləndirilməsinə müsbət təsir göstərəcək.

Forumun ilk günündə "Könüllü kimdir?" və "Regionda gənclərin sosial inkişafı və məşğulluğu" mövzuları üzrə müzakirələr aparılıb.

Tədbirin ikinci günü "Gənclərin ətraf mühitin qorunmasında könüllülük fəaliyyəti" mövzusunda müzakirələr aparılıb. Maraqlı keçən müzakirələr zamanı forum iştirakçılarının sualları cavablandırılıb.

Bağlanış mərasimində BMT-nin Azərbaycan ofisinin Proqramlar rəhbəri Məzahir Əfəndiyev və Şəki şəhər Gənclər və İdman İdarəsinin rəisi Vüqar İskəndərov çıxış edərək forumun yüksək səviyyədə keçdiyini qeyd etmiş, bütün iştirakçılara öz təşəkkürlərini bildirmişlər.

Forumda iştirak edən rayonumuzun gənclərinin nümayəndələri müzakirələrdə fəallıq göstərmişlər. Qəbələ Rayon Gənclər və İdman İdarəsinin məsul işçisi Məhəmmədəli Səfərçinovun, «Qəbələ» qəzetinin əməkdaşı Şöhrət Süleymanovun ətraf mühitin qorunmasına gənclərin könüllülük prinsipləri ilə cəlb edilməsi yolları barədə təklifləri maraqla qarşılanmışdır.

Q. SƏMƏDOV.

Müdrik deyimlər

eHəyat əqidədən və əqidə uğrunda mübarizədən ibarətdir.

Şəhriyar.

eHər yoldan ötənə xoş gəlmək üçün öz baxışlarını dəyişən adamı biz heç bir məsləki olmayan rəzil, alçaq hesab edirik.

N. A. Dovrolyubov

eHəyatda yüksək vəzifədə olsan belə, özünü hamıya bərabər tut.

Menandır.

eHər kəs ağıllı olmaq istəyir, ağıllı ola bilməyən kəslər isə demək olar ki, adətən hiyləgər olur.

C. Conson.

eMüdrik adam üçün fakt həm əsil poeziya, həm də nağılların ən gözəlidir.

Emerson.

eAxmaq adam xoşbəxtliyi uzaqlarda axtarır: müdrik adam isə onu öz yanında yetişdirir.

Oppenheym.

ePis müəllim şüuru korlar, sözün mənasını çatdırmaz, ağlın inkişafını dayandırar, təlim-tərbiyəni fasada çevirər. Nəticədə həyatın təbii axarına və gözəlliyinə ziyan yetirər. Mən bu kimi müəllimlərdən şikayət edirəm.

Zərdüşt.

Topladı: N. ATAKİŞİYEV.